UOT 94; UOT 94(479.24)

SEVİNC QURBANOVA
A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı,
Azərbaycan Dillər Universiteti
Regionşünaslıq kafedrasının müəllimi
sevinc.qurbanova.adu@gmail.com

İSPANİYA-SƏFƏVİ ƏLAQƏLƏRİNDƏ ANTONİO DE QOVEANIN SƏFƏRLƏRİNİN ƏHƏMİYYƏTİ

DOI: https://doi.org/10.36719/2708-065X/103/12-16

XVI-XVII əsrlərdə dövlətlərarası əlaqələrin genişlənməsində elçilərin, səfirlərin və müxtəlif missiyaların xidmətlərindən geniş istifadə olunurdu. İspaniya krallığı və Səfəvi dövləti arasında diplomatik əlaqələrin genişlənməsində iştirak etmiş şəxslərdən biri portuqaliyalı rahib Antonio de Qovea olmuşdur. Məqalədə Antonio de Qoveanın Səfəvi dövlətinə səfərləri, oradakı fəaliyyəti və bunun İspaniya-Səfəvi münasibətlərinə təsiri işıqlandırılıb.

Açar sözlər: Səfəvi dövləti, münasibətlər, İspaniya, Antonio de Qovea, Avqustinlər.

Giriş. Səfəvi dövlətinə səyahət edən avropalı səyyahlar haqqında, xüsusilə də onların dərc edilmiş xatirələri və hesabatları ilə bağlı bir çox bioqrafik məlumatlar var. Don Qarsia de Silva i Fiqeroaya qədər bu missiyanı ispanlar və əsasən də portuqaliyalı missionerlər yerinə yetirirdi. Bu cür şəxslərdən biri Antonio de Qovea (1575-1628) olmuşdu. Antonio de Qovea XVII əsrin əvvəllərində İspaniya krallığı ilə Səfəvi dövləti arasında diplomatik əlaqələrin genişlənməsində elçi kimi fəaliyyət göstərib. Eyni zamanda Müqəddəs Avqustin ordeninin üzvü olaraq missionerlik fəaliyyəti ilə məşğul olub. Qeyd etmək lazımdır ki, Müqəddəs Avqustin ordeni Katolik kilsəsinin dini ordenidir. 1244-cü ildə Toskanada bir neçə qrupun birləşdirilməsindən yaradılmışdı. Bir çox dövlətlərdə, həmçinin XVII əsrdə Səfəvi dövləti ərazisində missionerlik fəaliyyəti ilə məşğul olurdular.

Antoni de Qoveanın Səfəvi dövlətinə səfərləri və apardığı danışıqlar 1603-1612-ci illər Osmanlı-Səfəvi müharibəsi ərəfəsində aparılırdı. İspan kralı III Filippin məhz onu Səfəvi sarayına göndərməsində bir neçə məqsədi var idi. Bunlardan biri Osmanlı ilə müharibə ərəfəsində olan və ona qarşı birgə çıxış etmək planlarını Şah I Abbas ilə müzakirə etmək idi. Digər tərəfdən ispan kralı İngiltərənin Hörmüzdə möhkəmlənməsinin qarşısını almaq istəyirdi. Səfəvi dövlətində xristianlar üçün əlverişli şəraitin yaradılması, burada kilsə inşası və avqustin ordeninin fəaliyyətinə icazə alınması Antonio de Qoveanın qarşısında duran əsas məqsədlər idi. Osmanlı ilə mübarizədə Avropa dövlətləri ilə hərbi ittifaq bağlanmasına nail olmaq istəyən Şah I Abbas Antonio de Qovea geri dönərkən, onunla öz elçisi Allahveri bəy Türkməni də İspaniyaya göndərmişdi [7, s.199].

Şah I Abbasın razılığı ilə 1602-ci ildə İsfahan şəhərində Müqəddəs Avqustin ordeninin missiyası yaradılmışdı. Bunun ardınca şəhərdə kilsə və monastır inşa edilmişdi. İspaniyanın Müqəddəs Avqustin ordeni üzərində təsiri güclü idi və bir çox avqustinləri elçi kimi Səfəvi sarayına göndərmişdi. Bununla da bu ordenin üzvləri iki ölkə arasında əlaqələrin genişlənməsində əsas vasitəçilər olmuşdular [5, s.224].

Antonio de Qovea haqqında. Avqustin təriqətinin missioneri olan Antonio de Qovea 1602-1613-cü illər arasında Səfəvi dövlətinə səfər edən portuqal əsilli səfir idi. 1575-ci ildə Portuqaliyanın Beja şəhərində anadan olub. O, kilsə təhsilini bitirdikdən və keşiş təyin olunduqdan sonra 1597-ci ildə Avqustin təriqətinin missioneri kimi Hindistana getmişdi. Hindistanda Tana monanstırı və 2 ildən sonra Qoada monastırda keşiş, fəlsəfə və ilahiyyat professoru kimi fəaliyyət göstərirdi. Portuqaliya və Səfəvi dövlətində kilsənin maraqlarını müdafiə etmək məqsədilə İspaniya kralı III Filipp tərəfindən digər iki avqustinlilər ilə (Xeronima de la Kruz və Kristobal del Espiritu Santo) birlikdə diplomatik missiyanın nümayəndəsi seçilmişdi [4]. İspan kralı III Filippin əmri ilə 3 dəfə Səfəvi dövlətinə səfər edib və Şah I Abbas ilə görüşüb.

Antonio de Qovea Səfəvi dövlətinə ikinci səfərindən sonra Avropaya getdiyi dönəmdə 1611-ci ilin 19 iyununda Portuqaliya tacından kral vaiz titulunu almışdı. Bunun ardınca 19 avqust tarixində o, V Pavel tərəfindən Kirenenin (Afrika) titullu yepiskopu və Səfəvi dövlətində apostol ziyarətçisi təyin edilmişdi [2]. 1613-cü ildə İrandan (Səfəvi dövləti - S.Q.) qaçdıqdan sonra 1616-19-cu illərdə Qoada qalırdı. 1620-ci ilin yanvarında Valensiyaya yola düşdükdən sonra səyahət etdiyi gəmi üç əlcəzair korsan gəmisi tərəfindən tutulmuşdu. Əlcəzairdə əsirlikdə olarkən o, ispanlar və portuqallar da daxil olmaqla, təxminən on beş min xristianı əhatə edən məhbuslar arasında pastorluq xidməti göstərmişdi. Yepiskop Qoveanın fidyəsi təxminən 3000 dukat dəyərində qiymətləndirilirdi. Sardiniyanın vitse-kralı və Madrid sarayının səyindən sonra yepiskop Qovea 1621-ci ilin avqustun 15-də buraxıldı və Valensiyaya qayıtdı [4]. Antonio de Qovea ömrünün son illərini Madriddə ədəbi fəaliyyətə həsr edərək keçirmişdi.

Antonio de Qovea diplomat kimi fəaliyyət göstərəndə Səfəvi dövləti ilə bağlı iki kitab yazıb [9]. De Qovea ilk kitabı olan "Jornada"nı Persiyaya (Səfəvi dövlətinə - S.Q.) 1602-1603-cü illərdə ilk səfərindən sonra yazıb. İlk səfərindən sonra Persiya (Səfəvi dövləti - S.Q.) haqqında ilk yazılı hesabatının girişini yazdı. "Jornada" kitabı 1606-cı ildə nəşr olundu. Bu kitabı yazarkən1604-1605-ci illərdə Səfəvi dövlətinə səfər etmiş avqustinli keşişlər Belçior dos Anyos (portuqal dilində - Belchior dos Anjos) və Gilyerme de Santu Agostinyunun (portuqal dilində - Guilherme de Santo Agostinho) məlumatlandırıcı məktublarını da oxuyub [9]. "Jornada" kitabı yalnız Səfəvi dövləti və sonuncu fəsildə müəllifin şahın sarayındakı missiyasından bəhs edir. Həmçinin buraya Şah I Abbasın ispan kralı III Filippə məktubunun mətni də daxildir.

Onun "Relaçam" adlanan ikinci kitabını Səfəvi dövlətində ikinci səfəri zamanı yazmışdı. Kitab 1611-ci ildə Lissabonda nəşr edilmişdir. Bu kitab yalnız Persiya (Səfəvi dövlətinə - S.Q.) həsr olunub. Həmçinin burada yaşayan erməni əhalisinin katolikliyi qəbuletmə perspektivindən danışılıb. Müəllif bu kitabı yazarkən iki avqustinli keşişlərin məlumatlandırıcı məktublarından savayı, P.P.Dieqo de S.Annanın iki məktubundan da ilhamlanıb. Onun ikinci kitabını tənqid edənlər də var. Onlardan Pyetro Della Vallini (Pietro Della Valle) qeyd edə bilərik. O, Antonio de Qoveanın ikinci kitabının birincinin məzmunu ilə ziddiyyət təşkil edən məlumatlardan ibarət olmasını qeyd etmişdi. Digər tərəfdən Antonio de Qoveanın fars dilini yaxşı bildiyi deyilir və onun əsərini XVII əsrin ilk onilliyində Səfəvi dövləti haqqında ən yaxşı sənədləşdirilmiş Avropa mənbəbi hesab edirlər [9].

Antonio de Qoveanın "Relaçam" əsəri 3 hissədən ibarətdir. Birinci hissədə onun səfirliyi dövründə olan hadisələr - Lar yəhudiləri, şahın ədalət və iqtisadiyyata münasibəti, onun şəxsi davranışı və Şirazda Aşura yürüşünün təsviri haqqında qeyd olunub. İkinci hissədə Səfəvi-Osmanlı müharibələri haqqında geniş məlumatlar, şahın Təbriz, Mərənd, Colfa (Culfa), Naxçıvan, Bakını geri alması və İrəvanın mühasirəsi əhatə olunub. Bu hissədə həmçinin ordunun gücü kimi hərbi məsələlərlə bağlı məlumatlar var. Üçüncü hissədə isə ermənilərin Roma kilsəsi və Avqustin keşişləri ilə münasibətlərindən bəhs edir [9].

Antonio de Qoveanın Səfəvi dövlətinə səfərləri. Antonio de Qovea ilk dəfə Səfəvi dövlətinə 1602-ci ildə Qoanın arxiyepiskopu Aleyşu de Menzesin əmri ilə səfər etdi. III Filippin məktubunu Şah I Abbasa çatdırmaq üçün İspaniya elçiləri fevral ayında Qoadan İsfahana yola düşdü. Bu elçilər Avqustin təriqətinin keşişləri - Xeronimo de la Kruz, Kristoban do Espiritu Santo və Antonio de Qovea iki aydan sonra Hörmüzə çatdılar. Xorasanda özbəklərlə döyüşən Şah Abbasla görüşmək üçün Lar və Şiraz vasitəsilə Yəzd şəhərinə və oradan Məşhədə getdilər. 1602-ci ilin 5 sentyabrında onların Şah I Abbas ilə Məşhəddə görüşü oldu [4]. Məşhəddən İsfahana qayıdan Şah I Abbas avqustin keşişləri də özü ilə götürmüşdü. Həmin zaman Robert Şerli şahın yanında olaraq danışıqlarda iştirak edirdi. Antonio de Qovea Səfəvi dövlətində katolik xristianlara sərbəstlik və kilsə tikintisinə icazə verilməsini şahdan xahiş etmişdi. Portuqaliyalı nümayəndə heyəti sonra şahın müşayiəti ilə İsfahana yola düşərək noyabrın 10-da ora çatdılar [1, s. 1334].

Qeyd olunan məktub Şah I Abbasın 1599-cu ildə Avropaya göndərdiyi Antoni Şerli və Hüseynəli bəyin səfərinə cavab məktubu idi. Əvvəldə Şah I Abbas ispan elçilərini qəbul etmək istəməmişdi. Lakin kral III Filippin məktubunu gətirdiklərini öyrəndikdən sonra ispan elçilərini 1603-cü ilin fevralında qəbul etdi [8, s.338]. Həmçinin de Qoveanın qeydlərinə görə şah paytaxta gəldikdən sonra ona qarşı münasibətində soyuqluq hiss olunurdu. Bunun əsas səbəbləri kimi Bəhreyni ələ ke-

çirmək niyyəti ilə portuqalların Hörmüzün qarşısına çıxmağa hazırlaşmaları xəbərinin yayılması və avqustin təriqətinin missionerlərinin İsfahanda kilsə tikmək tələbinə qarşı ruhanilərin narazıçılığı idi. Buna baxmayaraq, şah missionerlərə kilsə və ev tikmək üçün icazə verdi [9].

Məktub ispan kralı III Filippin Səfəvi şahını Avropanın Osmanlılara qarşı döyüşmək niyyətində ciddiliyinə inandırmaq məzmunu daşıyırdı. İsfahanda keçirilən qəbula Antonio de Qovea ilə yanaşı, o zaman Səfəvi sarayında olan ingilis səfiri Robert Şerli və Roma papasının səfiri Fransisko de Kosta da dəvət olunmuşdu. Səfirlərə dövlətlərinin Osmanlıya qarşı müharibəyə girmələri müqabilində Səfəvi dövlətinin şəhərlərində kilsələr tikmək və Hörmüzdə müsəlman, xristian və yəhudilərə ticarət etməyi icazə veriləcəyi deyilmişdi. Ruhanilər yenidən narazılıqlarını bildirdikləri halda, düşmənlə mübarizədə xristian dövlətlərinin onlara kömək etdiyi əsas gətirə bilərdi [7, 104-105]. Qəbuldan sonra şah cavab məktubunu öz elçisi Allahverdi bəy Türkman və Antonio de Qovea ilə birlikdə Avropaya göndərdi. Eyni məzmunlu məktubda Şah I Abbas İspaniya ilə hərbi ittifaq bağlamaq istəyini bildirmişdi. İspaniya səfirliyinin digər iki üzvünü isə sarayda saxlamışdı. [7, s.105; 8, s. 338]. Beləliklə, de Qovea İsfahanı tərk edib Hindistana üz tutdu. Aprelin 1-də Hörmüzə çatmasına baxmayaraq, ordan Qoaya gedə bilmədi və Şiraza qayıtdı. Səfəviləri Bəhreyni portuqallara qaytarmağa inandırmaq üçün uğursuz cəhdlərindən sonra o, Səfəvi dövlətini tərk etdi [9].

Antonio de Qoveanın Səfəvi dövlətinə ikinci səfəri 1608-ci ilin iyununda baş tutdu. O, İsfahanda daimi Avqustin missiyasının yaradılması vəzifəsi ilə yenidən Səfəvi sarayına göndərilmişdi. Onunla birlikdə İspaniyadan həmçinin Şah I Abbasın səfiri Allaverdi bəy Türkmən də qayıtdı. Şah onları Həmədanda qəbul etdi. İspaniya kralı III Filipp Səfəvi dövlətinin Osmanlılar üzərində qələbəsi münasibətilə Şah I Abbası təbrik etmək üçün onu yenidən Səfəvi sarayına göndərmişdi. Şah I Abbasın qəbulunda olan Antonio de Qovea III Filippin məktubunu ona təqdim etdi. Məktubda qeyd olunduğu kimi, İspaniya kralı III Filipp Şah I Abbası Osmanlılar üzərində qələbə münasibətilə təbrik edirdi. Bundan əlavə, İspaniya donanmasının Qara dənizdə Osmanlı donanmasına hücumları haqqında ətraflı məlumat verirdi. Fars hakiminin Bəhreyn adaları və bir neçə sahil qalasını Hörmüz xanından almasına isə tənqidini bildirmişdi. Səfəvilər dövlətində yerləşən katolik keşişlərinə qarşı mərhəmətli olmasını xahiş etmişdi [7, 105]. İspanların Osmanlı dövlətinə qarşı müharibə aparmaması və avqustinli keşişin şəxsi davranışından narazı olan Şah I Abbas bu dəfə də de Qoveanı qəbul edərkən soyuq münasibət göstərdi. Antoni de Qoveanın qeyd etdiyinə görə, buna baxmayaraq bu qəbul zamanı Şah I Abbas dərhal öz elçisi Dəngiz bəy Rumlunu Antonio de Qovea ilə İspaniyaya kralı və Roma papası ilə danışıqlar aparmaq üçün 1609-cu ildə Avropaya göndərdi. Onun Avropaya elçi göndərməsinin əsas səbəbi Qərb dövlətlərinin Osmanlı imperiyasına qarşı müharibəyə qaldırmaq istəyi idi [3, s.176]. Digər məsələ Osmanlıya rüsum ödəməmək üçün İrandan Avropaya ipəyin Hörmüz yolu ilə daşınması ilə bağlı danışıqlar aparmaq idi [4]. Dəngiz bəy Rumlu özü ilə birlikdə 100 tay ipək də aparmışdı. Kitabının nəşrini tamamlamaq üçün de Qovea əvvəla Lissabona getmiş, oradan isə Madridə yola düşmüş və ispan kralına Şah I Abbasın məktubunu çatdırmışdı. Tarixi mənbələrdə Qovea 1610-cu ilin sentyabrın 4 tarixindən artıq Lissabonda idi. Madridə isə yalnız 1611-ci ildə çatdı. Bununla bərabər, Səfəvilərin bütün ipəyi ala bilmələri üçün ispanların öz nümayəndələrini Hörmüzə göndərmək təklifini də çatdırdı. Qeyd olunan 100 tay ipəyin yarısı Dengiz bəy Rumlu tərəfindən öz mənfəəti üçün satıldıqdan sonra, qalanı Antonio de Qovea tərəfindən ispan kralına nümunə kimi deyil, hədiyyə olaraq təklif olunmuşdu [9]. Antonio de Qovea və Dengiz bəy Rumlu İspaniya və Romaya səfər etməli idilər. Lakin türk elçisi (Burada Dengiz bəy Rumlu nəzərdə tutulur) Romaya səfəri əlverişli və lazım olduğuna inanmadığı üçün ləğv etdi. Onlar Papaya şahın məktubunu və III Filippin yazdığı 1611-ci il 12 may və 17 iyun tarixli iki məktubunu göndərdilər [4]. Şahın Antonio de Qoveanı Colfa (Culfa) ermənləri üçün katolik yepiskopu təyin etməsini görmək arzusunu bildirən Dengiz bəyin göstərişi ilə İspaniya kralı Roma papasını de Qoveanı Sirene (Cyrene) yepiskopu və İsfahan ermənilərinin Apostol vikarisi rütbəsinə yüksəltməyə razı saldı [9].

Antonio de Qovea və Dəngiz bəy Rumlu Roma papası ilə kral III Filippin məktublarını Şah I Abbasa çatdırmaq üçün 1612-ci ildə Madriddən Qoaya getdilər [8, s. 341]. Sentyabrda Qoaya, 1613-cü ilin aprelində Hörmüzə, iyunda isə Şah I Abbasın sarayına çatdılar. 1613-cü ildə Səfəvi dövlətinə qayıtdıqdan sonra Dengiz bəy Rumlu ipək işində iştirak etdiyinə görə edam edildi. İsgəndər bəy Münşi qeyd edirdi ki, Səfəvi şahı Dəngiz bəyin səfərdə olarkən atdığı addımları və onu qəzəbləndi-

rən məlumatlar almışdı. Bu səbəbdən də, Şah I Abbas geri qayıdan Dəngiz bəyi izahat almadan edam etdirmişdi [6, s.1074-1075]. Bunun sonrakı məlumatlarda müxtəlif izahatları var. Bir qədər sonra İsfahana gələn de Qovea İspan kralının "tacir olmadığını" və III Filippin göndərdiyi hədiyyənin ipəyin dəyərini ödədiyini iddia edərək özünü müdafiə etməyə çalışdı. Lakin səfəvilər tərəfindən qiymətləndirildikdən sonra bunun yalan olduğu müəyyən edildi. Antonio de Qovea ispan kralı adından hədiyyələri Şah I Abbasa təqdim edərkən, bunlardan hansının ipəyin pulu ilə alındığını Şah ondan soruşmuşdu. Ondan həmin məbləği ödəmək tələb olunmuşdu. Antonio de Qovea özünü müdafiə etməyə çalışaraq, ipəyin ispan kralı üçün hədiyyə olaraq göndərildiyini güman etdiyini bildirmişdi. Bu yolla məsələdən xəbərdar olan ispan kralı III Filipp də məktub vasitəsilə narazılığını Antoni de Qoveaya çatdırmışdı. 1613-cü ilin 21 oktyabrında şah Gürcüstanda olarkən Qovea şahın icazəsi olmadan Hörmüz istiqamətində İsfahandan ayrılmışdı [3, s.104-105]. Bununla da, İsfahanda qaçaraq, Antoni de Qoveanın İspaniya-Səfəvi diplomatik əlaqələrində iştirakı sona çatmışdı.

Nəticə. Şah I Abbas hakimiyyəti dövründə həyata keçirdiyi mərkəzləşmə siyasəti və islahatları nəticəsində Səfəvi dövlətinin güclənməsinə nail oldu. O, həmçinin fəal xarici siyasət yeridirdi. Onun hakimiyyəti dövründə bir çox Avropa ölkələri ilə, xüsusilə də Papalıq, Portuqaliya, İspaniya, İngiltərə ilə diplomatik, siyasi və iqtisadi əlaqələr genişlənmişdi. Bu əlaqələrin ərsəyə gəlməsində ölkələrarası elçilər, səfirlər və müxtəlif missiya xidmətlərindən istifadə olunurdu.

Yuxarıda qeyd olunanlara əsasən belə bir nəticəyə gəlmək olar ki, Səfəvi dövlətində Şah I Abbas və İspaniyada kral III Filippin hakimiyyəti dövrlərində İspaniya ilə Səfəvi dövləti arasında diplomatik əlaqələr genişlənmişdi. Bu əlaqələrin davam etdirilməsində portuqal əsilli səfir və həmçinin Avqustin ordeninin üzvü olan Antonio de Qovea yaxından iştirak etmişdi.

Antonio de Qoveanı qəbul etdiyi zaman digər ölkələrin, əsasən də Roma Papalığının və İngiltərənin nümayəndələrinin iştirakı da təsadüfi hesab etmək olmaz. Bununla İspaniya tərəfinə onlardan konkret addımlar gözlədiyini bildirmək istəyirdi.

Antonio de Qovea Səfəvi dövlətinə birinci səfəri zamanı Şah I Abbas ilə apardıqları danışıqlarda konkret bir nəticə əldə etməmiş və Qoaya qayıtmışdı. Lakin bundan sonra o, həmçinin Şah I Abbas tərəfindən İspaniya və Roma papası ilə danışıqlar aparmaq və məktubları çatdırmaq üçün Avropaya göndərilmişdi.

Antonio de Qovea da daxil olmaqla, digər xristian din xadimləri, xüsusilə də avqustin missionerləri Səfəvi dövlətinin daxilində katolik kilsəsinin təsirini gücləndirmək istiqamətində fəaliyyət göstərirdilər. Burada kilsə və monastır inşa etməklə, əhali arasında missionerlik fəaliyyəti ilə məşğul olmağa çalışırdılar. Burada xüsusilə ermənilərlə əlaqə yaradır və onları öz himayəsinə almaqla Katolik kilsəsinin maraqlarına uyğun istifadə etməyə çalışırdılar.

Şah I Abbasın Antonio de Qoveaya münasibəti də sabit olmamışdı. Antonio de Qoveanın səmimi olmayan davranışı və Səfəvilərin maraqları ilə ziddiyyət təşkil edən fəaliyyəti ona soyuq münasibət göstərilməsinə səbəb olmuşdu. 1613-cü ildə Avropadan qayıtdıqdan sonra ipəyin çox hissəsinin elçilər tərəfindən mənimsənilməsi, Antonio de Qoveanın isə bunu gizlətməyə və şahı aldatmağa çalışmasını, sonda onun İsfahandan qaçması ilə nəticələnmişdi.

ƏDƏBİYYAT

1. Aydoğmuşoğlu, C. Safevi hükümdarı Şah Abbasın dini siyaseti // – Ankara: Turkish Studies – International Periodical For The Languages, Literature and History of Turkish or Turkic, – Summer 2011. vol. 6/3, – p. 1329-1337.
2. Bishop Antonio de Gouvea, O.E.S.A. October 9, 2022. - https://www.catholic-hierarchy.org/bishop/bgovea.html [07.11.2023].
3. Fernandes, L.G. El imperio Luso-Español y la Persia Safávida: [en2vol.] / L.G. Fernandes. – Madrid: Fundación Universitaria Española,– vol. 2 (1606-1622). – 2009. – 626 p.
4. Gonzàlez Lazcano Rafael. Antonio Gouvea. - https://dbe.rah.es/biografias/38490/antonio-gouvea [07.11.2023].

5. Heydarli, G. Activities of Dominican and Augustinian missionaries in the territory of the Safavid Empire: interreligious exchanges and challenges //– Constanta: Revista Română de Studii Eurasiatice, Anul XVI, – 2020. № 1-2, – p.217-228.
6. History of Shah Abbas the Great by Eskandar beg Monshi: [in2vol.] /ed. E. Yarshater. – Boulder:Westview Press, – vol. 2,– 1930. – p. 546-1392.
7. Махмудов Я.М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами/II половина XV - начало XVII века/ - Баку; Издательство Бакинского университета, 1991. 264 с.
8. Nəcəfli, T.H. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti (Türkiyə tarixşünaslığında) / T.H. Nəcəfli. – Bakı: Turxan NPB,– 2020. – 520 s.
9. Rudi Matthee. Antonio de Gouvea. December 15, 2002. - https://www.iranicaonline.org/articles/gouvea-antonio-de [07.11.2023].

СЕВИНДЖ ГУРБАНОВА
докторант Института истории им. А.А.Бакиханова,
преподаватель кафедры Регионоведения
Азербайджанского Университета Языков

ЗНАЧЕНИЕ ВИЗИТОВ АНТОНИО ДЕ ГОВЕА В ИСПАНО-СЕФЕВИДСКИХ ОТНОШЕНИЯХ

В XVI и XVII веках в расширении межгосударственных связей широко использовались услуги посланников, послов и различных миссий. Одним из тех, кто участвовал в расширении дипломатических отношений между королевством Испания и государством Сефевидов, был португальский проповедник Антонио де Говеа. В статье освещены визиты Антонио де Говеа в государство Сефевидов, его деятельность там и ее влияние на испанско-сефевидские отношения.

Ключевые слова: Сефевидское государство, отношения, Испания, Антонио де Говеа, Августины.

SEVINJ GURBANOVA
doctoral student at the Institute of History. A. Bakikhanov,
Lecturer Department of Regional Studies, Azerbaijan University of Languages

THE IMPORTANCE OF THE VISITS OF ANTONIO DE GOVEA IN SPANISH-SAFAVID RELATIONS

In the 16th and 17th centuries, the services of envoys, ambassadors and various missions were widely used in the expansion of interstate relations. The Portuguese priest Antonio de Govea was one of the people who participated in the expansion of diplomatic relations between the kingdom of Spain and the Safavid state. The article highlights Antonio de Govea's visits to the Safavid state, his activities there and its impact on Spanish-Safavid relations.

Keywords: Safavid state, relations, Spain, Antonio de Govea, Augustines.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 noyabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.
Rəyçilər: t.e.d. Sevdagül Əliyeva, t.e.d. İsmayıl Məmmədov.